

**MƏMMƏDTAĞI CƏFƏROV,**
Kənd Təsərrüfatı
Akademiyasının rektoru

## HEYDƏR ƏLİYEV – MİLLİ İDEOLOGİYAMIZIN VƏ MÜSTƏQİLLİYİMİZİN BAŞ MEMARIDIR

Bütün ictimai formasiyalarda cəmiyyətin inkişafı, iqtisadiyyatının yüksəlməsi, ən çətin problemlərin həlli və dəhşətli faciələr mənbəyi olan müharibələrdə insanların bir amal uğrunda səfərbər olması işində dövrün ideologiyası aparıcı qüvvə olub.

Yaşadığımız müharibələrin, inqilabların, repressiyaların, deportasiyaların, soyqırımların və b. faciələrin tarixi o qədər uzaq deyil.

Tarixin belə bir dövründə Azərbaycan xalqının görkəmli oğlu, planetimizin sayılıb-seçilən ictimai-siyasi və dövlət xadimlərindən biri, ölkə Prezidenti Zati-aliləri cənab Heydər Əliyevin şəxsiyyəti formalaşmış, ildırımlı yollar keçərək polad iradəli xilaskara çevrilmişdir.

Bu məqalədə milli ideologiyamızın formalaşmasında cənab Heydər Əliyevin misilsiz tarixi xidmətlərinə dair öz xatirələrimin qısa xülasəsini vermək istəyirəm.

Moskvanın sütunlu salonunda Üzeyir Hacıbəyovun anadan olmasının 100 illiyi ilə əlaqədar təntənəli yubiley keçirilirdi. Tədbirdə Azərbaycandan Ramiz Mehdiyev (hazırda Respublika Prezidenti Aparatının rəhbəri) məruzə ilə çıxış edirdi. Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının rektoru kimi mən də nümayəndə heyətinin tərkibində idim. O vaxt SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev və SSRİ mədəniyyət naziri Demiçev hökumət lojasında (Rəyasət Heyətində) yanaşı oturmuşdular. Fasilə zamanı cənab Heydər Əliyev yubiley iştirakçısı olan azərbaycanlılarla əl verib səmimi görüşdü. Respublikada özünün təşəbbüsü ilə başlanmış quruculuq işlərinin vəziyyəti və bununla əlaqədar qarşıya çıxan çətinliklərlə maraqlandı. Mədəni-maarif ocaqlarının və sənaye müəssisələrinin, tikintilərinin tezliklə başa çatdırılmasını tövsiyə etdi. Şəxsən Heydər Əliyevin təşəbbüsü ilə Sov. İKP. MK-nın və SSRİ Nazirlər Sovetinin birgə qərarından sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun kompleksi ucaldıldı. Cənab Heydər Əliyev böyük maraqla məndən kompleksin tikintisinin nə vəziyyətdə olmasını soruşdu. Cıdır meydanının tikintisi və cins atların xarici ölkədən alınıb gətirilməsi, professor-müəllim heyəti üçün nəzərdə tutulmuş binaların və tələbələr üçün inşa edilən yataqxana tikintisinin vəziyyəti barədə cənab Heydər Əliyevə müfəssəl məlumat verdim.



Sovet İttifaqı Marşalı, Sovet İttifaqı Qəhrəmanı Baqramyan İvan Xristoforoviç də Heydər Əliyevi müşayiət edirdi. Cənab Heydər Əliyevin həmyerliləri ilə söhbətlərinə o, diqqətlə qulaq asırdı. Sonra Marşal üzünü mənə tutub dedi:

Görürsən də, Heydər Əliyev yoldaş Böyük Vətəndə hökumət başçısının birinci müavini olsa da, ürəyi özünün kiçik Vətəni ilə döyünür.

Onun bu sözlərinin sətiraltı mənasını uzun illər hafizəmdə yaşatdım.

Yaxşı yadımdadır, 1986-cı ilin iyun ayında Moskvada Kənd Təsərrüfatı İnstitutları rektorlarının müşavirəsində SSRİ Kənd Təsərrüfatı naziri Mesyats dedi:

Xammalın çatışmaması üzündən ölkənin gübrə istehsalı sənayesi müəssisələri dayanmaq üzrə idi. Çünki ölkəmizə gübrə xammalı ixrac edən Afrika ölkələri onlarla bağlanmış qarşılıqlı müqavilələri pozmuşdular. M.S.Qorbaçov həmin ölkələrin rəhbərləri ilə əlaqəyə girmiş, buna baxmayaraq xammalın alınması problemini həll edə bilməmişdi. Ancaq Heydər Əliyev bu problemi çox asanlıqla həll etdi. Bakının ali təhsil ocaqlarında vaxtı ilə təhsil almış mütəxəssislər indi Afrika ölkələrində rəhbər vəzifələrdə çalışırlar. Vaxtilə afrikalı tələbələrlə Heydər Əliyev sıx ünsiyyət yaratmış, onların mənzil-məişət və sair problemləri ilə yaxından məşğul olmuşdu. İnsanlara göstərdiyi bu qayğı və diqqət onun şəxsiyyətinə qarşı hüsn-rəğbəti artırmış və ona görə də Heydər Əliyev ölkənin düyünə düşən problemini asanlıqla tənzimləyə bilmişdi. Bu bir daha kadr hazırlığında Heydər Əliyevin uzaqgörən siyasətinin uğurlu nəticəsi kimi qiymətləndirilir.

Azərbaycana qoşun yeridən, 1990-cı il yanvarın 20-də Bakını qan gölündə boğan İmperiya rəhbərlərinə qəzəb və nifrətini nümayiş etdirmək üçün hadisədən dərhal sonra Moskvada Azərbaycan Nümayəndəliyinə gələn Heydər Əliyevin cəsarətinin, yenilməzliyinin və əsl mənada ölümün gözünə dik baxmasının şahidiyəm.

Dünyanın super dövlətlərindən biri olan, keçmiş SSRİ-nin müxtəlif inzibati orqanlarının və şəxsən M.S.Qorbaçovun göstərişilə izlənən Heydər Əliyev qorxu bilmədən Azərbaycana qarşı imperiyanın təcavüzünü əsl mənada həyəcan təbili ilə dünya ictimaiyyətinə çatdırdı və öz xalqına başsağlığı verdi.

Azərbaycanın bütün sahələr üzrə böhran, faciələr içərisində boğulduğu vaxt, dövlətçiliyimiz təhlükə altında olanda, daxildə olan satqınlar, xarici kəşfiyyat şəbəkəsinin torunda çırpınan xainlər, qonşu dövlətlərin təxribat törədən bəzi rəhbərləri, erməni işğalçıları ilə bir blokda birləşən vaxtda ölkə ziyalıları bu faciədən qurtuluş yolunu, xilaskar missiyasını yalnız cənab Heydər Əliyevdə gördülər. Ona görə də uzaqgörən 91 nəfər ziyalı Azərbaycanı düçar olduğu bəlalardan xilas etmək üçün cənab Heydər Əliyevdən hakimiyyətə qayıtmağı təkidlə xahiş etdilər və sözün əsl mənasında ondan əl çəkmədilər.

Bizim hər dəfə Naxçıvanda, cənab Heydər Əliyev ilə görüşümüzdə o, hakimiyyətə gəlməkdən imtina edirdi. Yaxşı yadımdadır, 1993-cü il may ayının 10-da ziyalıların böyük dostu H. Əliyevin anadan olmasının 70 illiyini təbrik etmək üçün Naxçıvan şəhərinə getmişdik. Bizi qəbul edən Heydər Əliyev ölkənin ağır vəziyyətə düşməsindən, xalqımızın faciəli həyat tərzindən və nəhayət, erməni

işğalçılarına qarşı vahid komandanlıq altında milli ordumuzun hələ də formalaşmamasından ürək ağrısı ilə söhbət açdı.

Görüşümüzdən 10 gün sonra məni bir də qəbul edən cənab Heydər Əliyevlə çox ətraflı söhbətimiz oldu. Söhbətimizin yekununda ciddi şəkildə qeyd etdi ki, mən hakimiyyətə gəlmək fikrində deyiləm. Lakin xalqımızın və dövlətimizin son dərəcə ağır vəziyyətə düşməsi hər bir ziyalını, bütövlükdə Azərbaycan vətəndaşlarını ciddi düşündürməlidir.

Bu gün biz iftixarla qeyd edə bilərik ki, zamanın hökmü və xalqımızın iradəsi ilə Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycanı məhv olmaqdan xilas etdi. Eyni zamanda tarix şahiddir ki, müstəqilliyimizin atributu olan üçrəngli bayrağımızı ilk dəfə Naxçıvan səmasında dalğalandıran və sərhədlərimizin qorunmasını imperiya ordusundan alaraq öz milli ordumuza tapşıran da cənab Heydər Əliyev olmuşdur.

Bu gün Azərbaycanın milli ideologiyasının ana xəttini Heydər Əliyevin XX əsrdə keçdiyi ildırımlı yollarda polad kimi bərkimiş şərəfli həyat yolu təşkil edir. Bu ideologiyanın səfərbəredici təsiri altında işğal olunmuş ərazilərimizi azad edərək, xalqımızı işıqlı gələcəyə tərəddüdsüz apara və son məqsədə – güclü, müstəqil və demokratik respublikaya malik ola bilərik.

Cənab Heydər Əliyev dünyanın super dövlətlərindən biri olan keçmiş SSRİ-də yeganə dövlət xadimidir ki, imperiya daxilində milli azadlıq hərəkatının lideri olmuşdur.

Sovetlər İttifaqında ideologiya maşınının Soljenitsını, Bıkovskini, Şaranskini və başqalarını təqib edib ölkədən qovduğu zaman Heydər Əliyev respublikamızda milli dəyərlərimiz olan görkəmli elm və sənət xadimlərimizi qoruyub, təqiblərdən xilas etmiş, hətta mükafatlandırmışdır.

Dövrümüzün klassik şairi Bəxtiyar Vahabzadə "Gülüstan" poeması görə çox böyük təqiblərə məruz qaldığı zaman H.Əliyev onu müdafiə etmiş, yaradıcılığına yüksək qiymət vermiş və onu Azərbaycanın Dövlət mükafatı laureatı adına layiq görmüşdür.

Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadov "Atabəylər dövləti" və "Azərbaycan IX-X əsrlərdə" əsərlərinə görə təqib olunub hətta işdən çıxarılmışdı. Tənqidçilər əsərlərində onun güclü pantürkizm və panislamizm təbliğatı olduğunu göstərirdilər. H.Əliyevin köməyi ilə Z.Bünyadov təqiblərdən azad oldu və Azərbaycanın Dövlət mükafatına layiq görüldü.

Böyük Azərbaycan rəssamı Səttar Bəhlulzadə öz tablolarında Azərbaycan təbiətini özünəməxsus ustalıqla fırçaya almışdır. Lakin həmin əsərlər "sosialistik" olmadığına görə qəbul edilmirdi. S.Bəhlulzadə yaşamaq naminə ən çətin həyat tərzi keçirməyə məcbur olmuşdu.

Sonralar H.Əliyev bu böyük sənətkara Göy-gölə həsr etdiyi "Kəpəzin göz yaşları" və s. əsərlərinə görə Xalq rəssamı fəxri adı və Dövlət mükafatı vermişdi.

Yazıçı C.Bərgüşadın, F.Kərimzadənin, Ə.Cəfərzadənin və digər yazıçıların qələmindən çıxmış neçə-neçə əsərlər, o cümlədən "Çaldıran döyüşü", "Boz atın belində", "Bakı 1501-ci ildə" romanları, professor Fəridə Məmmədovanın "Albaniya tarixi" və digər əsərlər məhz 1970-80-ci illərdə yarandı və xalqımızda milli ideologiyanın formalaşmasına hələ o dövrdə ciddi təsir etdi.



Bütün bu əsərlərin yaranmasının təşəbbüskarı və müdafiəçisi yalnız Heydər Əliyev olmuşdur.

Keçmiş SSRİ-nin heç bir respublikasında elm-sənət xadimlərinə belə qayğı göstərilməmişdir. Azərbaycanın elm və mədəniyyət xadimlərinə ən yüksək mükafatın – Sosialist Əməyi Qəhrəmanı adının verilməsi H.Əliyevin böyük qayğısının bəhrəsidir.

M.İbrahimov, S.Rüstəm, R.Rza, Q.Qarayev, Niyazi, F.Əmirov, R.Behbudov və başqaları belə sənətkarlardandır.

Azərbaycan Kommunist Partiyası MK-nın inzibati binasının (baxmayaraq ki, belə binalar ittifaqın hər yerində bir səpgidə olan arxitektura ilə tikilməli idi) və onlarca digər obyekin tikintisində H.Əliyev binanın xarici daxili görünüşündə milli ornamentlərdən istifadə olunmasına xüsusi diqqət yetirirdi. Nəticədə Bakı şəhərini gözəlləşdirən çox gözəl memarlıq nümunələri yarandı. Abbasabad, Yelizavetpol, Kirovabad...

Tarixi Gəncə adını qaytarıb, bərpa etmək mümkün olası iş deyildi. Buna o zamankı Moskva icazə verməzdi. Bu zaman H.Əliyev əsl vətənpərvərlik və milli təəssübkeşlik göstərərək çıxış yolunu tapdı. Belə ki, şəhər iki inzibati rayona bölündü, rayonun birinə (şəhərin qədim hissəsinə) Gəncə adı, ikincisinə isə Kəpəz adı verildi.

Beləliklə, 1980-ci ildə əzəli Gəncə adının bərpa olunmasının ilk və möhkəm özülü qoyuldu.

Yüzlərlə misallar çəkmək olar ki, H.Əliyevin uzağı görmə, proqnozlaşdırma və ona səylə nail olması sayəsində bu gün Azərbaycan böyük sosial, texniki və intellektual potensiala malik bir dövlətdir.

Azərbaycan ziyalıları iftixar hissi keçirməklə, öz böyük müəllimləri cənab Heydər Əliyevin doğum gününü ümumxalq bayramı səviyyəsində keçirməyə hazırdırlar. Bu məqsədlə Gəncə şəhərində İcra Hakimiyyətinin başçısı cənab Eyvaz Babayevin rəhbərliyi ilə müstəqilliyimizin və dövlətçiliyimizin möhkəmlənməsi üçün silsilə tədbirlər keçirilir.

Azərbaycan Ziyalılır Cəmiyyətinin idarə heyəti XX əsrə şərəf gətirən dünyanın ən görkəmli ictimai-siyasi və dövlət xadimi cənab Heydər Əliyevin şərəfli həyat yolunun gənc nəslin formalaşmasında misilsiz rol oynadığını nəzərə alaraq, respublikanın qərb bölgəsində onlarla konfranslar, seminarlar və müxtəlif toplantılar keçirmişdir.

Ümumxalq məhəbbəti qazanan cənab Heydər Əliyevin fenomen şəxsiyytini, daxili və xarici siyasətini öyrənən və təbliğ edən yüzlərlə insan, Heydər Əliyev məktəbinin dinləyiciləri onun dünya siyasətində və diplomatiyasında xüsusi rolunu, aqrar, elm, təhsil və başqa sahələrdə elmi cəhətdən əsaslandırılmış islahat konsepsiyasını və dövləti idarə etmə məharətini öyrənir və təbliğ edirlər.

Cənab Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin iqtisadi siyasəti Azərbaycanın iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməkdən ibarətdir. Ölkə başçısı 1995-ci ildən başlayaraq, adıcıl surətdə lazım olan iqtisadi islahatları həyata keçirir.

Azərbaycan iqtisadiyyatı 1990-cı ilin əvvəlində böhran vəziyyətində olduğu halda, 1995-ci ildən artıq inkişaf başlayıb. İndi respublikamızda böyük sahibkarlar təbəqəsi yaradılıbdır ki, bu da Azərbaycan iqtisadiyyatının apaıcı bir hissəsidir. Özəlləşdirmə prosesi gedir, iqtisadiyyatın çox sahəsi özəlləşdirilibdir.

Cənab Prezidentin həyata keçirdiyi iqtisadi islahatlar nəticəsində ölkədə makroiqtisadi sabitlik bərqərar olmuş, son altı-yeddi ildə ÜDM-in həcmi 2,6 dəfə artmış, inflyasiyanın qarşısı alınmış, büdcə kəsiri ümumi daxili məhsulun 1-2 faizinə qədər endirilmiş, milli valyutanın məzənnəsi sabitləşmiş, iqtisadiyyatın inkişafına bütün mənbələr hesabına 8,7 milyard dollar həcmində investisiya yönəldilmişdir.

Görülən tədbirlər nəticəsində 1995-ci illə müqayisədə hazırda əhalinin real pul gəliri 3 dəfədən çox, orta aylıq əmək haqqı isə 4 dəfə artmışdır. Hazırda özəl bölmədə orta aylıq əmək haqqı 510 min manat təşkil edir. Azərbaycan respublikası prezidentinin başçılığı ilə iqtisadiyyatın aparıcı sahəsi olan neft sektorunda uğurlu neft strategiyası həyata keçirilir.

Neft fondunun yaradılması, beynəlxalq neft və qaz kəmərlərinin çəkilməsi, Böyük ipək yolunun bərpası, TPASEKA layihələrinin həyata keçirilməsi beynəlxalq tranzit daşımalarında Azərbaycanın nüfuzunu və rolunu daha da artırmışdır.

Məhz Heydər Əliyevin müdrikliyi sayəsində indi Azərbaycanı bütün dünya tanıyır.

Azad respublikamız bir sıra beynəlxalq təşkilatların, ilk növbədə isə Avropa şurasının tam hüquqlu üzvüdür. Bu da çox xoşdur ki, cənab Heydər Əliyevin təşəbbüsü ilə müstəqil ölkəmizin paytaxtı Bakı şəhərində dünya azərbaycanlılarının birinci qurultayı böyük təntənə ilə keçirildi. Müstəqil Azərbaycan cənab Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində bütün dünyada təşkilatlanır. Bunun nəticəsində Azərbaycan həqiqətləri dünyanın ali tribunalarından şölə kimi saçır.

Bu gün bütün dünyaya səpələnmiş azərbaycanlılar bir bayraq altında birləşir, yaşadıqları ölkələrdə Azərbaycan gerçəkliyini, azərbaycançılıq ideyalarını yayırlar. İndi Yer kürəsinin hər bir guşəsində Azərbaycan müstəqil dövlət kimi tanınır, onun həqiqətləri qəbul edilir. Həmrəylik və birliyin ilhamverici qüvvəsi və təşkilatçısı, azərbaycançılıq ideyalarının müəllifi cənab Heydər Əliyevdir.

Sovetlər dövründə milli fikirlərin yayılması olduqca çətin, hətta təhlükəli bir iş idi. Buna görə də keçmiş SSRİ-də və xaricdə azərbaycançılıq ideyalarını yaymaq üçün müxtəlif vasitələrdən istifadə olunurdu. Məhşur müğənnilərimizdən Rəşid Behbudovun "Səni tərənnüm edirəm, doğma Azərbaycan", Müslüm Maqomayevin "Anamın anasısan, Azərbaycan" və digər konsert proqramları dünyanın ən böyük salonlarında səsləndirilirdi. Azərbaycanlı gənclər keçmiş SSRİ-nin ali məktəblərinə təhsil almağa göndərilir, həmin yerlərdə Azərbaycan mədəniyyət mərkəzləri yaradılırdı. Paytaxt şəhərlərində tez-tez Azərbaycan mədəniyyəti ongünlükləri, elm və incəsənət xadimlərinin yubileyləri keçirilirdi.



Moskvada, Sankt-Peterburqda, Rostovda, Taqanroqda Azərbaycanla bağlı abidələr qoyulurdu.

Həmin dövrdə Azərbaycan dilinin yad təsirlərdən qorunması və inkişafı da Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. 1978-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili ilk dəfə olaraq dövlət dili kimi təsbit olunmuşdu. Bu o dövr üçün hədsiz cəsarət tələb edən addım idi. "Azərbaycan dilinin izahlı lüğəti" və digər kitabların Dövlət mükafıtına layiq görülməsi, Azərbaycan Yazıçılar İttifaqının qurultayında ölkə başçısının ana dilində məruzə etməsi də milli dilin inkişafına göstərilən xidmətlərdəndir.

Cənab Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin I müavini işləyərkən və Siyasi Büronun üzvü olarkən də azərbaycançılıq ideyalarını yaymaq haqqında düşünürdü. N.Gəncəvinin "Xəmsə"sinin Moskvada çap edilməsi, Q.Qarayevin SSRİ Bəstəkarlar İttifaqının katibi, T.Salahovun SSRİ Rəssamlar İttifaqının birinci katibi vəzifələrinə seçilmələri, "Nizami", "Dədə Qorqud", "Babək", "Nəsimi" və digər milli ruhlu bədii filmlərin çəkilməsi və ümumittifaq ekranına çıxması, xarici ölkələrə səfər edən nümayəndə heyətinə azərbaycanlıların da daxil edilməsi cənab Heydər Əliyevin xidmətləri sırasına daxildir.

Sovetlər dövründə güclü təzyiqlərə baxmayaraq, azərbaycançılıq ideyalarının təbliği, Azərbaycanı tanıtmaq yolunda atılan bu addımlar əslində müstəqil Azərbaycan Respublikasının əsas meyarı olan azərbaycançılıq ideologiyasının ilk cücərtiləri idi.

Bu gün müstəqil dövlətimizin simvolu olan üçrəngli bayrağımız BMT-nin Avropa Şurasının iqamətgahları qarşısında əzəmətlə dalğalanır, imzalar içərisində millətimizin də imzası görünür.

Hazırda dünyanın 70-ə yaxın ölkəsində 50 milyondan artıq azərbaycanlı yaşayır. Harada yaşadıqlarından asılı olmayaraq, onların bir Vətəni – Azərbaycan, bir paytaxtı – Bakı və cənab Heydər Əliyev kimi ümummilli lideri var.

Bu üç məfhum bu gün ABŞ, İngiltərə, Fransa, Türkiyə, Almaniya, İtaliya, Kanada, İran və başqa dövlətlərdə yaşayan milyonlarla azərbaycanlının güvənc yeri, istinad nöqtəsidir.

Azərbaycanda, Bakıda Prezident Heydər Əliyevin təşəbbüsü ilə keçirilən Dünya azərbaycanlılarının I qurultayının təşkili, gedişi və yekunu xalqımızın həmrəylik istəyini və əzmini bütün dünyada nümayiş etdirdi. Dostlarımızı sevindirdi, bədxahlarımızı qorxuya saldı.

Bu gün cənab Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" və "İpək yolu" kimi nəhəng layihələrin reallaşması bütün dünyada maraqla izlənilir. Təsadüfi deyil ki, Azərbaycan xarici investisiya qoyuluşuna görə MDB məkanında birinci yeri tutur. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması dünya miqyasında mühüm hadisə kimi qiymətləndirilir.

ARDNŞ-nin vitse-prezidenti, MOK-un prezidenti millət vəkili İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan idmançılarını beynəlxalq olimpiadalarda qələbə çalaraq, üçrəngli bayrağımızın yüksəklərə qaldırılması, Avropa Şurası Parlament Assembleyasındakı uğurlarımız hər birimizin qəlbində sonsuz qürur və fərəh hissləri doğurur. İlham Əliyevin ABŞ-a səfəri, Ağ Evdə Dövlət Departamentində Konqresdə Pentaqonda keçirdiyi yüksək səviyyəli görüşləri Azərbaycanın milli maraqları baxımından böyük əhəmiyyətə malikdir.

Bu yaxınlarda cənab İlham Əliyevin fitri istedadı nəticəsində onun Avropa Parlament Assambleyasına vitse-prezident və büro üzvü seçilməsi Azərbaycanın ümummilli bayramına çevrilmişdir.

Bu gün iftixar hissi ilə qeyd edə bilərik ki, cənab Heydər Əliyevin qayğısı sayəsində əslən azərbaycanlı olan akademik Lütfizadə (ABŞ), dünya şöhrətli müğənni M. Maqomayev, general Kərim Kərimov (Moskva), rəssam T.Nərimanbəyov (Paris) və XXI əsrin digər azərbaycanlı korifeyləri Azərbaycanla yaşayır, onunla nəfəs alırlar.

Cənab Heydər Əliyevin Azərbaycana gələn dünya şöhrətli həmvətənlərimizlə görüşləri ənənə xarakteri alıb. Həmçinin Prezidentin xarici ölkələrə hər səfəri zamanı orada yaşayan soydaşlarımız onunla görüşə can atırlar. Bütün bunlar göstərir ki, dünya azərbaycanlıları cənab Heydər Əliyevi ümummilli lider kimi qəbul edir, onun ətrafında birləşirlər.

Cənab Heydər Əliyevin uzaqgörən, gələcək perspektivlərə hesablanmış siyasəti sayəsində bu gün Azərbaycan böyük sosial, texniki və intellektual potensiala malik bir dövlətə çevrilib. O, sözün əsl mənasında milli ideologiyamızın və müstəqilliyimizin Baş memarıdır.

Biz Azərbaycanın gələcək inkişafının təmin etmək üçün bu böyük siyasətçinin həyat yolunu, zəngin irsini dərindən öyrənməliyik. Azərbaycan Ziyalılar Cəmiyyətinin idarə heyəti bu məqsədlə onlarla konfrans, seminar və toplantı keçirmişdir. Müasirlərimiz Heydər Əliyevin dünya siyasətində və diplomatiyasında xüsusi rolunu və elmi cəhətdən əsaslandırılmış islahat konsepsiyasını öyrənir və təbliğ edirlər.

Azərbaycan xalqının görkəmli oğlu, dünya şöhrətli siyasətçi, möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin Azərbaycanda ikinci dəfə ali hakimiyyətə qayıdışının onuncu ildönümü onun anadan olmasının 80 illik yubileyi ilə demək olar ki, bir vaxta düşür.

Bu əziz bayram münasibətilə xalqımızı səmimi qəlbdən təbrik edirəm, Dahi rəhbərimizə və Böyük müəllimimizə uzaqgörən siyasətinin həyata keçirilməsində uğurlar arzulayır, respublikamızın müstəqilliyi yolunda yeni-yeni nailiyyətlər, uzun ömür və cansağlığı diləyirik.